*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 iyun 2017-ci il № 47 (2164) Qiyməti 25 qəpik


## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına uzunmüddətli səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar hüquqşünas"**

Kişiyev Rauf İsmayıl oğlu - polkovnik

**"Əməkdar həkim"**

Tağıyev Tofiq Tağı oğlu - tibb xidməti polkovnik-leytenantı.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 iyun 2017-ci il.

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına general-mayor ali hərbi rütbəsi verilsin:

polkovnik Ağayev Zakir Samiddin oğlu
polkovnik Əliyev Azər Əli oğlu
polkovnik Nəcəfov Hilal Əlimurad oğlu
polkovnik Salahov Füzuli Zəbiş oğlu.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 iyun 2017-ci il.

# Prezident İlham Əliyev ATƏT-in Minsk Qrupunun həmsədrlərini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da ATƏT-in Minsk Qrupunun həmsədrləri Stefan Viskontini, İqor Popovu, Riçard Hoqlandı və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul edib.*

Dövlətimizin başçısı dedi: "Sizin Ermənistana və Azərbaycanın işğal olunmuş ərazilərinə səfərinizdən sonra və Azərbaycana gəlişiniz ərəfəsində Ermənistan təmas xəttində Azərbaycana qarşı növbəti hərbi təxribat törətmiş və bunun nəticəsində bir Azərbaycan əsgəri həlak olmuşdur. Azərbaycan Ordusu həmişə olduğu kimi, adekvat cavab vermiş və bunun nəticəsi sizə məlumdur. Bu, mənim üçün təəccüblü deyil, çünki Ermənistan tərəfi həmişə hansısa mühüm tədbir və ya sizin səfəriniz ərəfəsində bu cür təxribatlar törədir və biz bunun bir neçə dəfə - 2014-cü, 2016-cı illərdə və indi də şahidi olmuşuq. Onlar, sözsüz, bilirlər ki, mülki əhali və hərbi qulluqçularımıza qarşı istənilən hərbi təxribata biz adekvat cavab verəcəyik. Azərbaycan tərəfini buna ona görə təhrik edirlər ki, sonra bizi atəşkəsi pozmaqda ittiham etsinlər. Hadisələrin xronologiyasına baxmağınız kifayətdir ki, nə vaxt Azərbaycan əsgərinin Ermənistan ordusu tərəfindən öldürüldüyünü və nə zaman buna Azərbaycan tərəfindən adekvat cavab verildiyini görəsiniz. Beləliklə, təmas xəttində son atəşkəs pozuntusuna görə məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür və baş verə biləcək hər hansı hadisəyə görə bütün məsuliyyəti işğalçı Ermənistan ordusu daşıyır".

Dövlətimizin başçısı, eyni zamanda, qeyd etdi ki, Azərbaycan tərəfi atəşkəs rejiminə sadiqdir. Son vaxtlarda təmas xəttində nisbi sakitlik hökm sürdüyünü deyən Prezident İlham Əliyev bildirdi ki, bu, danışıqlar prosesini sürətləndirmək üçün mühüm amildir. Lakin baş verənlər aydın şəkildə göstərdi ki, Ermənistan nəyin bahasına olursa-olsun, Minsk Qrupu həmsədrlərinin fəaliyyətini pozmağa çalışır. Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan diqqəti yalnız təhlükəsizlik məsələlərinə yönəltmək istəyir və bütün bu baş verənləri Azərbaycanı atəşkəsi pozmaqda günahlandırmaq üçün bir bəhanə kimi istifadə edir. Bu, tamamilə haqsız və ədalətsiz bir mövqedir.

Prezident İlham Əliyevə bəyan etdiyi fikirlərinə görə minnətdarlığını bildirən ATƏT-in Minsk Qrupunun rusiyalı həmsədri İqor Popov qeyd etdi ki, həmsədrlərin Azərbaycana səfəri ərəfəsində baş verən bu ciddi atəşkəs pozuntusu dərin təəssüf hissi doğurur. O dedi: "Biz səfərimizin yekunu olaraq qəbul edəcəyimiz bəyanatda bu vəziyyəti əks etdirəcəyik".

Söhbət zamanı Fransadan olan həmsədr Stefan Viskonti, ABŞ-dan olan həmsədr Riçard Hoqland və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anjey Kasprşik danışıqlar prosesi ilə bağlı fikirlərini ifadə etdilər.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Azərbaycan Ordusunun qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əliyev Natiq Avıl oğlu - general-mayor
Əmirağayev İslam Şixzadə oğlu - polkovnik

**"Vətən uğrunda" medalı ilə**

Mənsimov Tehran Cavid oğlu - polkovnik
Seyfullayev Kutais Qüdrət oğlu - polkovnik
Hətəmov Baba Ələmdar oğlu - polkovnik-leytenant
Nəciyev İlqar Rəşid oğlu - polkovnik-leytenant
Nuriyev Xizri Əhməd oğlu - mayor

**"İgidliyə görə" medalı ilə**

Cəlalov Zaur Alxaz oğlu - polkovnik
Fərhadov Cavid Mövlud oğlu - polkovnik-leytenant
Həsənov Anar Yaqub oğlu - polkovnik-leytenant
Şıxəliyev Aydın Bəhman oğlu - polkovnik-leytenant
Eynullayev Əli Hökuməli oğlu - gizir
Şıxəliyev Səftər Tapdıq oğlu - gizir

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Eyyubov Teymur Tərlan oğlu - general-mayor
Bəkirov Sübhan Kamal oğlu - polkovnik
Həsənov İlqar Mehər oğlu - polkovnik
Həsənov Məhərrəm Əşir oğlu - polkovnik
Quliyev Əziz Qədir oğlu - polkovnik
Pənahov Elşad İslam oğlu - polkovnik
Ağakişiyev Asif Əli oğlu - polkovnik-leytenant
Mirzəyev Aşur Hacıağa oğlu - polkovnik-leytenant
Mirzəyev Anar Mehman oğlu - mayor
Baxşəliyev Nizami Fizuli oğlu - baş leytenant.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 iyun 2017-ci il.

# Həmsədrlərlə görüşdə Ermənistan-Azərbaycan qoşunlarının qarşıdurma xəttindəki əməliyyat şəraiti müzakirə olunub



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyunun 19-da ölkəmizdə səfərdə olan ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Riçard Hoqland (ABŞ), Stefan Viskonti (Fransa Respublikası) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anjey Kasprşik ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Ermənistan-Azərbaycan qoşunlarının qarşıdurma xəttindəki əməliyyat şəraiti müzakirə olunub.

# “Ermənistanın cəbhədəki son təxribatlarını da qeyri-konstruktiv mövqe kimi dəyərləndiririk”



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyi aydındır. Bu mövqe dünya ictimaiyyətinə, həmçinin BMT Təhlükəsizlik Şurasına, ATƏT-ə, Avropa Parlamentinə, Avropa Şurasına və bu məsələ ilə məşğul olan digər qurumlara çatdırılıb. Ölkəmizin mövqeyi bundan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, qaçqınlar və məcburi köçkünlər öz yurd-yuvalarına qaytarılmalıdır, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı beynəlxalq hüququn normalarına əməl olunmalıdır.

Bu fikirləri iyunun 19-da jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov bildirib.

Əli Həsənov deyib: "Əlbəttə, biz ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin və beynəlxalq təşkilatların bu məsələ ilə bağlı fərqli mövqelərini anlayırıq. Ancaq əsas məsələ beynəlxalq hüququn pozulmaz prinsipi olan ərazi bütövlüyü məsələsidir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan öz torpaqlarının bir qarışını belə heç kimə güzəştə getməyəcək. Amma biz, eyni zamanda, konstruktiv sülhə nail olmağa hazırıq".

Əli Həsənov qeyd edib ki, Ermənistanın təcavüzkar siyasəti həmişə davam edib. Onlar indiyə qədər bu siyasətə heç zaman ara verməyiblər. Sadəcə olaraq, müəyyən məqamlarda bir qədər geri çəkiliblər, öz mövqelərini gizlətməyə, beynəlxalq ictimaiyyəti aldatmağa çalışıblar. Bütövlükdə biz 1990-cı illərdən başlayaraq bu günə qədər bir dəfə də ermənilərin bu məsələdə təxribatsız ötüşdüyünün şahidi olmamışıq. Onlar davamlı olaraq təxribata əl atırlar. Xüsusən də beynəlxalq səviyyədə danışıqların intensivləşdiyi, status-kvonun aradan qaldırılması ilə bağlı beynəlxalq aləmdə səylərin artdığı zamanda belə təxribatlara əl atırlar, cəbhə bölgəsində qarşıdurmanı gücləndirməyə və beynəlxalq aləmdə antiazərbaycan mövqelərini bu fonda gizlətməyə çalışırlar. Digər tərəfdən də ölkə daxilində əhalinin Ermənistan hakimiyyətinə, iradəsiz rejimə olan narazılığını ört-basdır etməyə çalışırlar. Ona görə də biz bu təxribatları da əvvəlki təxribatlar kimi Ermənistan hakimiyyətinin qeyri-konstruktiv mövqeyi kimi dəyərləndiririk.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri təlimlərdəki vəziyyətə dair məruzələri dinləyib



Müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin ümümqoşun əməliyyatlarının aparılması zamanı fəaliyyətlərin təşkili üzrə qəbul edilən qərarlara dair məruzələrini dinləyib.

Döyüş tapşırıqlarının aydınlaşdırılması, şəraitin qiymətləndirilməsi, ərazinin kəşfi, maket üzərində qarşılıqlı əlaqənin müəyyən edilməsi və qərarın məruzəsindən sonra qoşunların idarə olunması üzrə göstərişlər verilib.



Qeyd edək ki, təlimlərə 23 min nəfərədək şəxsi heyət, 120-dək tank və zirehli texnika, 180-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 30-dək müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ordu quruculuğu*

# Rabitə və AİS qoşunlarında texnoloji yeniliklər

**Polkovnik Məmməd EMİNOV,**
**Müdafiə Nazirliyinin Rabitə və Avtomatik İdarəetmə Sistemləri İdarəsinin rəisi**

Son illər Silahlı Qüvvələrimizdə həyata keçirilən irimiqyaslı islahatlar ordumuzun tam formalaşmasını təmin etdi. Azərbaycan Ordusu indi Cənubi Qafqazda ən güclü ordudur. Bu islahatların nəticəsi kimi, rabitə və AİS qoşunlarında da böyük texnoloji yeniliklərə imza atılıb, rabitə bölmələri müasir tələblərə cavab verən yeni texniki vasitələrlə təchiz olunub. Bu vasitələrin istismar xüsusiyyətləri mənimsənilmədən onların tətbiqi mümkün deyil.

Müharibədə qələbə həm də inanclı və təlimli əsgərlərlə, düzgün və tam kəşfiyyatla, atəş gücü və manevr qabiliyyəti ilə bağlıdır. Hər bir şəraitdə orduda etibarlı rabitə sistemi mühüm əhəmiyyətə malikdir.

XX əsrin sonlarında Sovetlər İttifaqının süquta uğraması, müstəqil dövlətlərin yaranması separatçılığa, lokal müharibələrə şərait yaratdı. Azərbaycanda da belə bir müharibə başladı - Ermənistanın əsassız ərazi iddiası elan edilmədən müharibəyə səbəb oldu.

Müstəqil Azərbayanda da ordu quruculuğuna, digər qoşun növləri ilə yanaşı, rabitə qoşunlarının da yaradılmasına başlandı. O dövrdə Azərbaycan Ordusunda sabiq Sovet ordusundan miras qalan rabitə vasitələrindən istifadə olunurdu. Köhnəlmiş olsa da, həmin dövr üçün qoşunların idarə edilməsində rabitənin qarşısına qoyulan tapşırıqların yerinə yetirilməsində qənaətbəxş hesab edilirdi. Zaman keçdikcə rabitənin qarşısına qoyulan tələblər də artdı. Belə ki, fəal radiomaneələrə qarşıdurma, taktiki səviyyə də daxil olmaqla məlumatların şifrələnməsi, məlumatların qısa vaxtda və böyük həcmdə ötürülməsi, real zamanda video-görüntünün alınması və ötürülməsi kimi bir çox tələblər yerinə yetirilməli idi. Köhnə rabitə vasitələri bu tələblərə cavab vermirdi. Məhz bu səbəbdən də qoşunların idarə edilməsində avtomatlaşdırılmış



idarəetmə vasitələrinin tətbiqinə böyük zərurət yaranmışdı. Bu sistemlərin tətbiqi ilə Rabitə Qoşunları Rabitə və AİS Qoşunları adlandırıldı.

Dünya miqyasında texnoloji inkişaf müasir müharibələrin aparılmasının forma və üsullarında dəyişikliyə səbəb oldu. Belə ki, müasir müharibələr əvvəlki müharibələrdən fərqli olaraq geniş cəbhədə aparılmır, lokal xarakter daşıyır. REM vasitələrinin geniş tezlik zolaqlı təsiri altında, əksər hallarda kontaktsız, tək taktiki sahədə deyil, kiber məkanda da aparılır. Deməli, qələbə qazanmaq üçün ordu yeni rabitə və AİS vasitələri ilə təchiz edilməlidir.

Ali Baş Komandanın ordu quruculuğuna diqqət və qayğısı bütün qoşun növlərində olduğu kimi, Rabitə və AİS qoşunlarında da maddi-texniki bazanın möhkəmləndirilməsini, yeni böyük texnoloji inkişafı, müasir texnologiyaların tətbiqini və istifadəsini təmin etdi.

Son illərdə Azərbaycan Ordusunun rabitə bölmələri müasir tələblərə cavab verən yeni nəsil rəqəmsal rabitə vasitələri ilə təchiz olunub. Bu vasitələrin istismar xüsusiyyətlərinin mənimsənilməsi üçün rabitə və AİS ixtisaslı zabit və gizirlər Azərbaycanda və xarici ölkələrdə müvafiq kurslara cəlb edilirlər.

Silahlı Qüvvələrimizdə istifadə edilən əsas rabitə (radio, radiorele və kabel rabitəsi) vasitələri müasir tələblərə cavab verir və geniş texniki imkanlara malikdir. Silahlanmaya qəbul edilmiş yeni nəsil radiorele rabitə vasitələri əvvəlkilərə nisbətən əhəmiyyətli üstünlüklərə malikdir: kütləsi və ölçüləri kiçikdir (böyük qabaritli rabitə vasitələrinin yerinə yetirdiyi funksiyaları indi kiçik qabaritli rahat daşınan mobil rabitə vasitələri daha səmərəli yerinə yetirir), enerji tələbatı dəfələrlə azdır (dağlıq ərazilərdə, sənaye elektrik mənbələrindən uzaqda xidmət edən şəxsi heyətə uzunmüddətli rabitəni təmin edir), tezlik atlama imkanı (düşmənin radio kəşfiyyat və REM vasitəsilə bizim radio məlumatların ələ keçirmə və susdurma imkanını çətinləşdirir (minimuma endirir), rabitənin gizliliyini, dayanıqlığını təmin edir, məsafədən idarə olunur, tənzimlənir (açılmış rabitə sisteminin vahid mərkəzdən idarə edilməsi, şifrələnməsi, qəzaya nəzarət edilmə və yönləndirilmə) və s.



Əvvəllər olduğu kimi, radiorabitə mühümlüyünü indi də saxlamaqdadır. Müasir müharibələrdə tətbiq olunan yüksək dəqiqlikli silahların REM və RES vasitələrinin imkanlarının artması, digər rabitə növü kimi radiorabitə vasitələrinin də texniki imkanlarının artırılmasını zəruriləşdirib. Azərbaycan Ordusunda sülh və müharibə dövrü üçün radiorabitəyə olan tələbatı təmin etmək məqsədilə, həm rabitə həm də digər qoşun növlərinin bölmələri müasir tələblərə cavab verən və geniş texniki imkanlara malik olan radiorabitə vasitələri ilə təchiz olunub, bu istiqamətdə işlər davam etdirilir.

Aktiv maneələrə qarşı fəal qarşıdurma iş rejimində radiomübadilə aparan radiostansiyalarda işçi tezliklərin sinxron dəyişməsi və eyni zamanda şifrələnməsi təmin edilir. Tezliyin yüksək sürətlə dəyişməsi həm aktiv maneələrə mübarizədə, həm də radiokəşfiyyata qarşı effektiv üsul hesab edilir.

Qısa mesaj xidmətindən və verilənlərin (DATA) mübadiləsindən istifadə zamanı radiostansiyaların efirdə olma müddəti minimuma enir və məlumat qısa bir zamanda (bir neçə saniyədə) şəbəkə müxbirinə çatdırılır, eyni zamanda, rabitənin doğruluğu əhəmiyyətli dərəcədə artır.

Məlumat mübadiləsi zamanı informasiyanın ən yüksək səviyyədə, o cümlədən bütövlükdə sistemin təhlükəsizliyi məsələləri nəzərə alınıb:

- mübadilə qəzasının kripto avadanlığı vasitəsilə şifrələnməsi;
- istifadə olunan avadanlıqların işinin "firewall" avadanlığı vasitəsilə tənzimlənməsi.

Yuxarıda qeyd olunan göstəricilərin geniş tətbiqi bizə, idarəetmə məntəqələri yerləşmə yerlərini dəyişərkən, rabitəni bir məntəqədən digərinə ötürməyə (qəbul etməyə), informasiya mübadiləsini qısa müddətdə təmin etməyə, həmçinin rabitənin düşmənin texniki kəşfiyyat və radioelektron susdurma vasitələrindən mühafizəsinə və rabitənin təhlükəsizliyi üzrə tədbirlərin daim nəzarətdə saxlanılmasını həyata keçirməyə imkan verir.

İdarənin hərbi qulluqçuları deyilənlərlə kifayətlənmir, inkişaf etmiş dünya ordularının nəzəri və praktiki bacarıqlarından müntəzəm olaraq faydalanır, ordumuzun rabitə və AİS sisteminin təkmilləşdirilməsi üzrə araşdırılmalar aparır və rəhbərliyin bu sahə üzrə göstərişlərini böyük məsuliyyətlə yerinə yetirirlər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***20 iyun 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 137 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, adsız yüksəkliklərdə və İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Fərəhli kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*"Heydər Əliyev irsini öyrənirik"*

# Kursantlar Heydər Əliyev Mərkəzini ziyarət etdilər



Ordumuzun şəxsi heyəti ilə "Heydər Əliyev irsini öyrənirik" mövzusunda məşğələlər müntəzəm keçirilir. Bu yaxınlarda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabit, gizir heyəti və kursantları da Yasamal rayonundakı Heydər Əliyev Mərkəzini ziyarət etdilər.

Sonra zabitlər və kursantlar ümummilli lider Heydər Əliyevin mərkəzdəki əzəmətli heykəli önünə gül dəstələri qoydular. Ulu Öndərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Mərkəzin bələdçiləri Gunel Paşayeva və Məhrux Hüseynova ulu öndər Heydər Əliyevin hər birimizə nümunə olan şərəfli həyat yolundan ətraflı məlumat verdilər.

Kursantlar nümayiş olunan eksponatlara böyük maraqla baxdılar. Ümummilli lider Heydər Əliyevin keçdiyi ömür yolu ilə, xalqımız və dövlətçiliyimiz üçün gördüyü cahanşümul işlərlə yaxından tanış oldular.

Dəyərli eksponatlarla yaxından tanış olduqdan sonra mərkəzin nümayəndələri kursantlar üçün qısametrajlı film nümayiş etdirdilər.

Kursantlardan Şövqü Şəkərov, Sahib İsmayılov, Fəxri Əsgərli, Səbuhi Fərzəliyev, Turan Balaqadaşov və başqaları Heydər Əliyev Mərkəzini ziyarətdən məmnun olduqlarını, Ulu Öndərin həyat yolunu və siyasi fəaliyyətini daha da dərindən öyrəndiklərini bildirdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

AZƏRBAYCAN ORDUSU

26 İyun - Silahlı Qüvvələr Günüdür

# Müstəqilliyimizin dayağı - xalqımızın qürur mənbəyi

*Slahlı Qüvvələrimizin ildönümü ərəfəsində, yəni iyunun 15-də Azərbaycan xalqı müstəqil dövlətçiliyimizin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin ölkədə ikinci dəfə siyasi hakimiyyətə qayıdışının ildönümünü - Milli Qurtuluş Gününü böyük təntənəylə qeyd etdi. Müstəqilliyimizin qorunub möhkəmləndirilməsində misilsiz xidmətləri olmuş dahi rəhbərin Vətənimizin gələcəyi naminə həyata keçirdiyi əsas islahatlardan biri də Silahlı Qüvvələrimizin yaradılması idi.*



Müdrik siyasətçi və qətiyyətli sərkərdə bildirirdi ki, müstəqil dövlətin qüdrətini, gücünü ifadə edən əsas amillərdən bəlkə də ən vacibi onun güclü orduya malik olmasıdır. "Azərbaycan Ordusu, Silahlı Qüvvələrimiz böyük gələcəyə baxmalıdır. Ancaq bu böyük gələcəyi təmin etmək üçün bu gün



Azərbaycanın güclü ordusu olmalıdır. Bu ordu sabah ondan güclü, beş il sonra ondan da güclü, on il, on beş il sonra daha da güclü olmalıdır. Azərbaycan Prezidenti və Ali Baş Komandan kimi, mən bu siyasəti aparıram və sizdən onu tələb edirəm. Buna nail olmaq üçün öz tərəfimdən əlimdən gələni etmişəm və bundan sonra da edəcəyəm".

Əslində dahi rəhbərimiz hələ sovet dönəmində xalqımızın nə vaxtsa müstəqil olacağını düşünərək məqsədyönlü islahatlara başlamışdı. İndiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması da bilavasitə müdrik şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Belə bir təhsil müəssisəsinin həmin dövrdə yaradılması böyük risk tələb edirdi və yalnız xalqının gələcəyi üçün narahat olan bir siyasi xadim belə cəsarətli addımı atmağa cürət edərdi.

Azərbaycan xalqının əsl bayram coşqusu ilə qeyd etdiyi əlamətdar günlər sırasında Silahlı Qüvvələr Gününün də yer alması təsadüf sayıla bilməz. Çünki ordu dövlətçiliyimizin, müstəqilliyimizin etibarlı dayağıdır. Bu əlamətdar hadisənin 26 iyun tarixinə təsadüf etməsi də tarixi zərurətdən irəli gəlir və xalqımızın keçmişinə verilən yüksək dəyərdir. Azərbaycan Ordusunun mövcudluğundan qürur duyan hər bir Azərbaycan vətəndaşı yaxşı bilir ki, ordumuzun güclənməsi əslində müstəqilliyimizin möhkəmlənməsinə və qorunub saxlanmasına güclü təminatdır.

XX əsrin əvvəllərində müstəqillyinə qovuşan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay mövcud olmasına baxmayaraq, belə qısa zaman ərzində öz ordusunu yaratmağa imkan tapdı. Məşhur hərb xadimlərimizdən Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov ilk ordu qüvvələrinin yaradılmasına və ölkədə hərbi strukturların formalaşmasına böyük əmək sərf etmişdilər. Paytaxt Bakıda və Gəncə şəhərində hərbi hissələrin, hərbi məktəblərin yaradılması, ölkədə hərbi çağırış sisteminin formalaşması, qısa vaxtda əldə edilmiş uğurlar idi.

Doğru deyiblər ki, tarix təkrar olunur. Ötən əsrin sonlarına yaxın xalqımız yenidən dövlət müstəqilliyini bərpa etdi və azad yaşamaq arzusunu gerçəkləşdirdi. Azərbaycanda dövlət və ordu quruculuğu sahəsində tarixi ənənələrin bərpa edilməsi zərurətə çevrildi.

Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir və belə ağır şəraitdə Azərbaycan xalqı haqlı olaraq dünya şöhrətli siyasətçi, müdrik şəxsiyyət Heydər Əliyevə üz tutdu, onu təkidlə siyasi hakimiyyətə dəvət etdi. Dahi rəhbərin 1993-cü ilin iyununda Azərbaycanın siyasi rəhbərliyinə qayıdışı bütöv bir xalqı bütün təhlükələrdən, xüsusən də müstəqilliyi itirmək təhlükəsindən xilas etdi.

Bir faktı da qeyd etmək lazımdır ki, millətinin gələcəyini düşünən dahi rəhbər siyasi nüfuzundan istifadə edərək gənclərin keçmiş ittifaqın müxtəlif hərbi məktəblərinə oxumağa göndərilməsinə şərait yaradırdı. Belə gənclər hərbi peşələrə yiyələnərək müstəqillik dövrümüzdə ordu quruculuğuna dəyərli töhfələrini verdilər. Göründüyü kimi, müdrik siyasi xadim zamanında Azərbaycanın gələcəyi üçün çox mühüm addımlar atdı və ordu quruculuğunda qazanılan uğurların səbəbini də belə uzaqgörənliklə əlaqələndirmək çox düzgündür.

Müharibədə əsaslı dönüşün başlanğıcı da Heydər Əliyevin adı ilə bağlıdır, çünki ölkənin ağır vaxtında xalqı səfərbər etməyi bacaran lider çox qısa vaxtda on minlərlə gəncin döyüşən orduya göndərilməsini təmin etdi. O, bir komandan olaraq cəbhə xəttinə müntəzəm səfər etdi və döyüşçülərlə görüşdü. Müstəqil Vətənimizin taleyində hər kəsin mühüm rolunu dəyərləndirərək əsgər və zabitlərin qarşısında ən müqəddəs vəzifənin - torpaqlarımızın işğalçılardan qorunmasının dayandığını bildirdi. Bilavasitə səngərlərdə hərbi qulluqçularla görüşən rəhbər onlara şəxsən hədiyyələr təqdim edirdi, Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunu artırmaq üçün konkret addımlar atırdı. Məhz belə səfərlərdən sonra Azərbaycan Ordusunun əks-hücumları baş verdi və Beyləqan-Füzuli istiqamətində onlarla yaşayış məntəqəsi işğaldan azad edildi.

Cəbhədə məğlubiyyətlə üzləşən işğalçı Ermənistan 1994-cü il mayın 12-də atəşkəs haqqında sazişə imza atdı. Bu fasilədən isə Azərbaycan rəhbərliyi müdrikcəsinə bəhrələnərək ordu quruculuğunu inkişaf etdirdi, hərbi hissələrin döyüş hazırlığı və maddi-texniki bazası əhəmiyyətli dərəcədə yüksəldildi.

Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə Silahlı Qüvvələrimizin tərkibində yaradılan sülhməramlı bölmənin şəxsi heyəti dünyanın münaqişə bölgələrində - İraqda, Kosovoda və Əfqanıstanda müqəddəs missiyanın - əmin-amanlığın və sabitliyin qorunmasına öz dəstəyini əsirgəmədi. İnkişaf etmiş ölkələrin dövlət bayraqları ilə bir cərgədə Azərbaycanımızın da üçrəngli bayrağının dalğalanması, doğrudan da, hər bir vətəndaşımızda sonsuz qürur doğurmaya bilməzdi.

Yaxşı yadımdadır, bir dəfə münaqişə bölgəsindən qayıtmış bir qrup sülhməramlı əsgərimizlə görüşəndə onların qürurlu baxışları marağıma səbəb olmuşdu. NATO-nun sülhyaratma qüvvələrinin komandanlığı tərəfindən keçirilmiş döyüş hazırlığı təlimində azərbaycanlı hərbi qulluqçular ABŞ və Kanada kimi nüfuzlu dövlətlərin sülhməramlılarından sonra üçüncü yeri tutmuşdular. Həmin vaxt NATO dövlətlərinin bir sıra nüfuzlu qəzet və jurnallarında Azərbaycan sülhməramlıları barəsində məqalələr dərc edilmişdi.

Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılmasını daim diqqətində saxlayan Ümummilli Liderimiz gənc nəslin vətənpərvərlik tərbiyəsinə böyük əhəmiyyət verirdi. O, ordu quruculuğunu inkişaf etdirməyi ümumxalq vəzifəsi hesab edərək ailədən tutmuş pedaqoji və ictimai kollektivlərə qədər hamının bu vacib sahədə rolunu əhəmiyyətli sayırdı və tövsiyə edirdi ki, Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimiz və dövlətə, Vətənə sədaqət ruhunda tərbiyə edilməlidir. "Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpağının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!" - deyən Ulu Öndərin çağırışından ruhlanan gənc nəsil həvəslə hərbi peşələrə yiyələnərək taleyini dövlətçiliyimizin dayağı olan orduya həsr edirdi.



Dahi sərkərdənin fikrinə görə, güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatıdır. Bu cəhətdən də Azərbaycan Ordusunun döyüş potensialının gücləndirilməsi onun siyasi kursunda əsas istiqamətlərdən idi.

Xalqımız fəxr edir ki, müasir dövrdə Ulu Öndərin irsi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müstəqil dövlətçilik kursunu inkişaf etdirən ölkə başçısı həm suverenliyimizin, həm də ərazi bütövlüyümüzün qarantı olan Azərbaycan Ordusunun hərbi qüdrətinin artırılmasına daim diqqət yetirir. Dövlətin yüksək qayğısı sayəsində doğma ordumuzun bölgədə nüfuzu daha da artıb və beynəlxalq səviyyəli hərbi ekspertlər də bu qənaətdədirlər ki, artıq Azərbaycan Silahlı Qüvvələri dünyanın güclü orduları sırasında yer tutur.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bir qayda olaraq bütün çıxışlarında ordu quruculuğu məsələlərinə toxunaraq bildirir ki, bir sahədə qazanılan uğurlar dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini və vətənpərvərliyini nümayiş etdirir. "Dəfələrlə demişəm, bu gün də deyirəm, bütün sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində Azərbaycanın üstünlüyünü görməmək mümkün deyil. Aprel döyüşləri də göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər".

Əlbəttə, 2016-cı ilin aprel zəfəri tək düşmənlərimizə deyil, beynəlxalq aləmə də bir həqiqəti sübut etdi ki, dövlətin qayğısı və xalqın etimadı ilə əhatə olunan Silahlı Qüvvələrimiz qarşısında dayanan hər bir vəzifəni uğurla yerinə yetirməyə qadirdir.

Azərbaycan xalqını böyük gələcəyə aparan ən mühüm amil ulu öndərimiz Heydər Əliyevin irsidir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Akademiyada keçirilən elmi konfransda çıxışı zamanı qeyd etdi ki, Ulu Öndərimizin siyasi hakimiyyətdə olduğu illər hərb tariximizin mühüm dövrünü əhatə edir. Nazirin təbirincə, "Heydər Əliyev irsi Silahlı Qüvvələrimizin şəxsi heyətinə ən layiqli örnəkdir və buna görə də hərbi qulluqçular tərəfindən dərindən öyrənilir".

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Vyetnam Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti ölkəmizdə səfərdədir



*Bakıda səfərdə olan Vyetnam Sosialist Respublikası Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələrini ziyarət edib.*

Əvvəlcə vyetnamlı qonaqlar ümummilli liderimiz Heydər Əliyevin Hərbi Dəniz Qüvvələri bazası ərazisində ucaldılmış abidəsi önünə gül dəstəsi qoyaraq, öz ehtiramlarını ifadə ediblər.

Nümayəndə heyətlərinin görüşündə iki ölkənin hərbi dəniz qüvvələri arasında əməkdaşlıq məsələləri müzakirə edilib və qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb.

Sonra Vyetnam nümayəndə heyəti HDQ-nin ərazisi, döyüş gəmiləri dəstəsi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi Hərbi Dənizçilik Fakültəsinin tədris-təminat bazası ilə tanış olublar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Silahlı Qüvvələrdə "Ən yaxşı hərbi topoqraf" adı uğrunda yarış keçirilib

*2017-ci tədris ilinin hazırlıq planına əsasən Silahlı Qüvvələrin topogeodeziya ixtisaslı zabitlərin "Ən yaxşı hərbi topoqraf" adı uğrunda yarışı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yeddi element üzrə təşkil olunan yarışda iştirakçılar ərazidə səmtləşmə, GPS vasitəsilə dayanma nöqtəsinin təyini, teodolitin quraşdırılması, xüsusi proqramda koordinatların çevrilməsi, xəritələrin nomenklatura üzrə birləşdirilməsi, ərazidə azimutla hərəkət və fiziki hazırlıq üzrə bacarıqlarını nümayiş etdiriblər.

Ümumi nəticəyə görə zabitlər R.İsayev birinci, R.Nuhov ikinci və T.Məmmədov üçüncü yeri tutublar.

Yarış iştirakçıları eyni vaxtda müasir kartoqrafik proqram təminatlarının imkan və qabiliyyətləri ilə yaxından tanış olublar.



# Silahlı Qüvvələrdə "Açıq qapı" günü keçiriləcək

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, iyunun 26-da saat 11.00-da Silahlı Qüvvələr Günü bayramı münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" təşkil olunacaq.

Həmin gün ziyarətçilər, ictimaiyyət, kütləvi informasiya vasitələrinin nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış olmaq, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə edəcəklər.

Müxtəlif hərbi hissələrdə Silahlı Qüvvələrin bütün rəhbər heyətinin iştirakı ilə keçiriləcək "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunacaq, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcəkdir.

# Müdafiə Nazirliyinin bəyanatı

*Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisindəki qoşunların qarşıdurma xəttində Ermənistan silahlı qüvvələrinin bölmələri davamlı surətdə təxribatlar törədir.*

Düşmən Silahlı Qüvvələrimizin mövqelərini və cəbhəboyu yaşayış məntəqələrimizi iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutmaqda davam edir.

Ermənistan silahlı bölmələrinin növbəti təxribatının qarşısını alarkən iyunun 15-də ordumuz itki verib.

Görülən qətiyyətli cavab tədbirləri nəticəsində iyunun 15-i və 16-da işğalçı qüvvələrin 6 hərbi qulluqçusu məhv edilib, yaralıları da var.

Müdafiə Nazirliyi xəbərdar edir ki, düşmənin bu cür əməllərinin qarşısı qətiyyətlə alınacaq və verəcəyi itkilərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Azərbaycanın xilas günü"



*İyunun 14-də Azərbaycan Hərb Tarixi Muzeyində 15 iyun -Milli Qurtuluş Gününə həsr olunmuş "Azərbaycanın xilas günü" adlı tədbir keçirilib. Tədbirdə Müdafiə Nazirliyinin, xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları, həmçinin hərbi hissələrin və ictimaiyyətin nümayəndələri iştirak edirdi.*

Əvvəlcə Ulu Öndərimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlilərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edərək "15 İyun - tariximizin parlaq səhifəsidir" mövzusunda məruzə ilə çıxış etdi. Polkovnik Milli Qurtuluş Gününün Azərbaycanın dünənini, bu gününü və gələcəyini təyin edən tarixi bir gün olduğunu qeyd edərək dedi:

- Müstəqilliyin ilk illərində ölkədə fəaliyyət göstərən bəzi silahlı dəstələrin yol verdikləri başıpozuq hərəkətlər, hakimiyyət uğrunda gedən qardaş qırğınları, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycan dövlətini parçalanmaya doğru aparırdı. Vətənin bu dar günündə xalqın təkidli tələbi ilə Bakıya gələn ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Azərbaycanın böyük oğlu Heydər Əliyev ölkəmizi ictimai-siyasi böhrandan, xaosdan, hərcmərclikdən xilas etdi. Beləliklə, dövlət quruculuğumuzun ən mühüm tarixi mərhələsi olan 15 iyun, Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Heydər Əliyev irsinin ordu quruculuğuna verdiyi töhfələrdən də söz açan muzey rəisi, bu gün müstəqilliyimizin, dövlətçiliyimizin dayağı olan doğma ordumuzun əsasının Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd etdi. Bugünkü gündə Ümummilli Liderin ordu quruculuğu siyasətinin Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və nizami ordumuzun hərbi qüdrətinin günü-gündən artdığını tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Sonra muzeyin elmi işçisi tarix elmləri üzrə fəlsəfə doktoru Vahid İsmayılov "Heydər Əliyev və beynəlxalq güclərin Azərbaycanda maraqları" mövzusunda məruzə ilə çıxış etdi. O, Ümummilli Liderin bütün fəaliyyətinin müstəqil Azərbaycan dövlətinin təşəkkül etməsinə kökləndiyini vurğulayaraq dedi:

- Dövlət quruculuğu mürəkkəb prosesdir. Müstəqil dövlət quruculuğundan danışarkən ölkənin xarici siyasət kursuna nəzər salmamaq mümkün deyildir. Heydər Əliyev mürəkkəb qlobal və regional vəziyyətin mövcud olduğu bir şəraitdə elmi baxımdan əsaslandırılmış xarici siyasət kursu müəyyənləşdirdi. Bu, Azərbaycan dövlətçiliyi üçün tarixi töhfə idi. Ulu Öndər ölkənin xarici siyasətinin bütün əsas istiqamətlərini müəyyənləşdirdi. Həmin istiqamətlər üzrə siyasi-diplomatik fəaliyyətin məzmunu və məqsədini dəqiqləşdirdi. Onun konkret tövsiyyələri və tapşırıqları əsasında xarici siyasətdə bir-birinin ardınca uğurlar əldə edildi.

Məruzəçi hər kəsin haqqında danışdığı "balanslaşdırılmış xarici siyasət kursu"nun əsasının məhz Ümummilli Lider tərəfindən qoyulduğunu və həmin kursun nəticəsi olaraq ölkəmizin Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Müstəqil Dövlətlər Birliyi (MDB) və çoxlu sayda digər təşkilatlara üzv olmasını qeyd etdi.

Tədbirin sonunda Milli Qurtuluş Gününə həsr olunmuş sənədli film nümayiş olundu.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Aprel döyüşlərinin iştirakçılarının ailə üzvlərinə qayğı

*Azərbaycan Ordusunun gücünü təsdiqləyən Aprel zəfəri heç zaman unudulmayacaq. Ali Baş Komandan İlham Əliyevin "Aprel zəfəri dərsliklərə salınmalıdır" fikri hər birimizin düşüncələrimizə hopub.*



Müdafiə Nazirliyi və Yeni Azərbarcan Partiyasının maliyə dəstəyi ilə aprel döyüşlərində şəhid olan, döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların ailə üzvlərinin bir qrupu Lənkərana - "Palıdlı sahil" istirahət mərkəzinə yola salınmışdır. Yeri gəlmişkən, bu, artıq ənənəvi tədbirlər sırasındadır. Belə ki, YAP ötən il də belə bir tədbirin həyata keçirilməsini təşkil etmişdi. Abdulla Qurbani yolasalma mərasimində çıxış edərək dedi ki, tədbirə dəvət olunanlar bir həftə ərzində cənub bölgəsinin görməli yerləri ilə tanış olacaq, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı yerləri, Şəhidlər xiyabanını ziyarət edəcək, muzeylərdə olacaqlar.

Tədbir təkcə istirahətlə məhdudlaşmayacaq. Astara, Lerik, Lənkəran rayonlarında əhali qazanılan qələbə üçün şəhid olanlarımızın, sağlamlığını itirənlərimizin ailə üzvləri ilə tanış olacaqlar ki, bu da vətənpərvərlik duyğularının daha da yüksəldilməsində vəsilə olacaqdır. Tədbirin davam etdiyi müddətdə Müdafiə Nazirliyi və "Palıdlısahil" istirahət mərkəzinin birgə təşkilatçılığı ilə silsilə mədəni-kütləvi tədbirlər keçiriləcəkdir ki, bu tədbirlərin də mahiyyəti dövlətçiliklə bağlı olacaq. Belə tədbirlər ordu ilə xalq arasında münasibətlərin daha da möhkəmlənməsinə yönəldilir.

Tədbir müddətində yerli incəsənət ustaları, özfəaliyyət kollektivlərinin üzvləri, eləcə də H.Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi maraqlı konsert proqramları ilə çıxışlar edəcəklər.

İstirahətə yola düşməzdən əvvəl Silahlı Qüvvərin Təlim və Tədris Mərkəzində iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi ziyarət edildi, önünə güllər qoyuldu. Hamı bir daha əmin oldu ki, heç kim unudulmur. Xalq şairi S.Vurğunun təbirincə desək, Vətəni canından əziz bilənlər hamının əzizidir.

Şəhid Tural Həşimlinin atası Əbdül Həşimli belə bir tədbirə, bu diqqətə, qayğıya görə təşkilatçılara minnətdarlığını bildirdi.

Yolasalma mərasimində Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun atası Salman Qurbanov dedi:

- Mənim oğlum da Vətən naminə döyüşdü, şəhid oldu. Onun xidmət yoldaşlarının hər birini oğlum bilirəm. Inanıram ki, əsgərlərimiz yaxın vaxtlarda qazanacağı qələbə ilə şəhidlərimizin ruhunu şad edəcəklər. Həmin gün Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə oğlumun adı verilmiş postda olacam. Bu tədbirə görə təşkilatçılara minnətdarlığımı bildirirəm.

Nicat İsgəndərlinin (Tərtər), Müşviq Orucovun (Zəngilan), Zakir Cəfərlinin (Ağdam) ailə üzvləri də bu tədbirdən məmnun qaldıqlarını dedilər.

... Anaların baxışlarında kövrəklik qarışıq məmnunluq duyulur.

Azər Məmmədovun azyaşlı qızı hərdən atasına, hərdən tədbirin təşkilatçısı Abdulla Qurbaniyə, hərdən ayaq saxlayan zabitlərə baxır. Nə düşünür görəsən?...

C.Naxçıvanski adına Hərbi Liseyin kursantları aprel döyüşlərində şəhid olanların, döyüşlərdə sağlamlığını itirənərin ailə üzvlərini Lənkərana alqışlarla yola saldılar.

Lənkaranda "Palıdlı sahil" istirahət mərkəzinin bir həftəsi təkcə istirahət edənlərin deyil, tədbirin təşkilatçılarının da, istirahət edənlərlə ünsiyyətdə olanların da yaddaşından heç zaman silinməyəcək.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

## Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi anılıb

Biləsuvarda Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi anılıb.

AZƏRTAC xəbər verir ki, rayonun rəhbər işçiləri, gənclər və ictimaiyyət nümayəndələri Milli Qəhrəmanın doğulub böyüdüyü Əliabad kəndində onun ailə üzvləri ilə görüşüblər.

Rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev görüşdə Mübariz İbrahimovun qısa, lakin şərəfli ömür yolundan söhbət açıb, torpaqlarımızın müdafiəsi zamanı göstərdiyi şücaəti diqqətə çatdırıb.

Qeyd olunub ki, Tərtər istiqamətində xidmət edən Mübariz düşmən işğalında olan Çaylı kəndində erməni qərargahına girərək, 5 saat təkbaşına döyüşüb, elə bu ağır döyüşdə də qəhrəmancasına həlak olub. Vətən, torpaq sevgisi onu şəhidlik zirvəsinə ucaldıb.

Çıxış edənlər bildiriblər ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə Mübariz İbrahimov torpaqlarımızın azadlığı uğrunda rəşadətli və müstəsna xidmətlərinə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Mübarizin bu uca ada layiq görülməsi respublikamızın hər yerində igid Vətən əsgərinin qəhrəmanlığına, döyüş rəşadətinə verilən layiqli qiymət kimi qarşılanıb.

Milli Qəhrəmanın atası Ağakərim İbrahimov onların ailəsinə göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq edib.

Sonra Milli Qəhrəmana məxsus müxtəlif şəkillər, haqqında yazılmış kitablar, jurnallar və qəzetlərdən ibarət guşə ilə tanışlıq olub.

# Kursantların qiraət məharəti yüksək qiymətləndirildi...

*Şeiri yazmaq da, oxumaq da xoşdur. Onu dinləmək isə başqa bir aləmdir. Qulaq asdığımız şeirin misralarından qəlbimizə hopan fikirlər bizi bir anlıq düşüncələr dünyasına aparır. Elə bir dünyaya ki, orada üzümüzə kamillik qapısı açılır.*



Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə "Azərbaycan Əsgəri" qiraət müsabiqəsi keçirildi. Müsabiqə zamanı kursantlar görkəmli şairlərimizin vətənpərvərliyi, qəhrəmanlığı və Azərbaycan əsgərini tərənnüm edən şeirlərini söylədilər, qiraət bacarıqlarını göstərdilər.

Bu yarışma Azərbaycan Həmkarlar İttifaqı İcraiyyə Komitəsinin C.Naxçıvanski adına Hərbi Liseylə 2014-2018-ci illər üçün mədəni hamilik üzrə tədbirlər planına əsasən keçirilir. Qaydalara uyğun olaraq, yarışmada qalib gələn kursantlar sözügedən qurumun rəhbərliyi tərəfindən mükafatlandırılır.

Ümumiyyətlə, vətənpərvərlik mövzusunda həm inşa, həm də qiraət müsabiqələrinin keçirilməsi Cəmşid Naxçıvanski adına Hərbi Liseydə ənənə şəklini alıb. Hərbi Liseyin rəhbərliyi kursantların hərbi vətənpərlik ruhunda tərbiyə olunması üçün bundan başqa da müxtəlif məzmunlu yarışmalar teztez təşkil edir.

Qiraət yarışmasını giriş sözü ilə müsabiqə komissiyasının sədri, Azərbaycan dili və ədəbiyyatı müəllimi Sahib Əsədov açıq elan edərək bildirdi ki, belə tədbirləri keçirməkdə məqsəd kursantlara vətənpərvərlik hisslərini aşılamaqdır.

Daha sonra Azərbaycan Həmkarlar İttifaqı İcraiyyə Komitəsinin nümayəndəsi Xoşqədəm Bağırova çıxış etdi və gələcəyin zabitlərinə uğurlar arzuladı.

Sonra qiraət müsabiqəsi başlandı. Zala sükut çökdü. Hamı diqqətini şeir söyləyən kursantlara yönəltdi. Növbə ilə səhnəyə çıxan kursantlar şeir söylədikcə özlərini bir anlıq böyük teatr salonlarında hiss edirdilər. Onların dilindən qopan şeirlər misra-misra, sözsöz ətrafa yayılırdı. Müxtəlif illərdə, müxtəlif şairlərin yazdıqları şeirlər sanki burada bir axında birləşmişdi. Kursantlar daha çox Vətəni, qəhrəmanlığı tərənnüm edən şeirlər söyləyirdilər. Onların özləri kimi, səsləri də bir-birinə oxşayırdı.

Kursantlar səhnədə bir-birini əvəz edir. Komissiya üzvləri kursantların bacarıqlarını qiymətləndirir, müvafiq qeydlər aparırlar. Hiss olunur ki, kursantlar bu dəfə də yarışa çox böyük həvəslə hazırlaşıblar. Həyəcanlı anlar isə davam edir...

Qiraət yarışmasında iştirak edən kursantlardan Tapdıq



Mənsurov, Azər Əhmədov, Beyrək Quliyev, Ziya Hacıyev, Bəybala Bəşirov, Rəşid Məmmədzadə və başqaları ilə söhbət edib ürək sözlərini dinlədim. Hiss etdim ki, onların poeziyaya maraqları böyükdür.

Yarışı diqqətlə izləyib qiymətləndirən əməkdar artist Qəmər Məmmədova fikirlərini bölüşərək dedi:

- Ötən il də qiraət yarışmasında iştirak etdim. Kursantları dinləmək mənim üçün çox xoşdur. Onların çıxışları ürəyimcə oldu. Müəllimlərin seçimlərinə afərin! Şeirləri də çox yaxşı idi. Mənim üçün kursantların hamısı qalibdir. Mən onları təbrik edir, gələcək xidmətlərində uğurlar arzulayıram.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Məqsəd Vətənə sədaqətli olmaqdır



*İnsan həyatında elə günlər olur ki, ömür boyu unudulmur. Bu yaddaqalan günlərdən biri ilk dəfə məktəbə getdiyin gündürsə, digəri də məktəb illərinə "əlvida" dediyin "Son zəng" günüdür. Məşhur bir mahnıda deyildiyi kimi, uşaqlığın ən qayğısız, ən çılğın anlarıdır məktəb illəri. Tək düşüncən verilən dərsləri mükəmməl öyrənmək, əla qiymət almaq olur. İllər isə bir-birini qovaraq "son zəng" gününə yetirir.*

Hər il ölkəmizdə "Son zəng" günü qeyd olunur. Bu gün məzunların həyatında əlamətdar bir gündür. Məzunların simasında sevinc dolu bir nisgil hiss olunur. Onbirincilər bu günə böyük həvəslə hazırlaşırlar. Şeir əzbərləyən kim, mahnı yazdıran kim, ssenari quran kim…

Tədris ilinin başa çatması və son zəng münasibəti ilə Bakının Yasamal rayonundakı 158 saylı tam orta məktəbdə də təntənəli mərasim keçirilirdi. Məktəbin həyatinə daxil olanda ürəyim sızıldadı, qəlbimin dərinliklərindən bir arzu keçdi: "kaş o günlər olaydı".

Hərbi vətənpərvərlik tədbirləri ilə seçilən məktəbdə olmaq, bu əlamətdar gündə onlarla görüşmək sevincimizə sevinc qatır, bir o qədər də həyəcanlandırırdı. Respublikanın bütün məktəblərində olduğu kimi, burada da canlanma vardı. Az sonra son zəng çalınacaq, 136 şagird sinif otağından müstəqil həyata atılacaqdı.

Tədbirin başlamasına az qalmış məktəbin direktoru Mehriban xanım Ələkbərova ilə həmsöhbət olmaq imkanı qazandıq. O, bildirdi ki, ölkəmizdə elmin və təhsilin yüksəlişi, o cümlədən, yüksək peşəkarlığa malik ixtisaslı kadrların hazırlanması Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün də Ümummilli Liderin siyasi kursu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həmçinin Mehriban xanım qeyd etdi ki, vətənpərvərlik hissləri uşaqlara ailədə, məktəbdə aşılanmalıdır. "Biz də təhsil işçiləri öz üzərimizə düşəni etməyə çalışır, gənclərimizi Vətənə sevgi, xalqa məhəbbət və düşmənə nifrət hissləri ilə böyütmək üçün əlimizdən gələni edirik."

Məktəbin həyəti rəngbərəng şarlarla, müxtəlif gül-çiçəklərlə bəzənmişdi. Bir tərəfdə on bir il əvvəl əllərindən tutub onları məktəbə gətirən valideynləri, digər tərəfdə isə şagirdlərinə təkcə bilik verməklə kifayətlənməyib əsl vətəndaş kimi formalaşmaları üçün yol göstərən müəllimləri vardı. Hamı bir-birini təbrik edirdi. Bir anlıq məzunlara diqqət edirəm. Necə də həyəcanlı və sevinclidirlər. Onlar gələcəyin müəllimləri, həkimləri, mühəndisləri, hərbçiləridi... Oğlanlar, şübhəsiz, hərbi xidmətə yollanacaq, Vətənə əsgəri borclarını yerinə yetirəcək, ömrünü orduya bağlayanlar da olacaq.

Əlbəttə olacaq! Hərbçi peşəsi şərəfli və müqəddəs peşədir. Vətənpərvərlik hisslərinin bu dərəcədə aşılandığı orta məktəbdən kifayət qədər hərbçi çıxacağına şübhəm yoxdur.

Nəhayət, hər kəsin intizarla gözlədiyi an gəlib çatır. Son dəfə məktəbli forması geyinmiş məzunlar öz yerlərini tuturlar, Dövlət bayrağımız təntənəli marşın sədaları ilə meydana gətirilir. Dövlət himninin səslənməsi ilə tədbirin rəsmi hissəsi başlayır. Öncə mərasim iştirakçıları ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan döyüşçülərin xatirəsini bir dəqiqəlik sükutla yad edirlər.



Şagirdlər arasından seçilən aparıcı qız sözə başlayır.

- Əziz müəllimlərimiz, istəkli valideynlərimiz, hörmətli qonaqlarımız və mehriban şagirdlərimiz! Sizin hamınızı bu şən günümüzdə salamlayır və hər birinizə "Xoş gəlmisiniz" deyirik. Bu günün həyəcanını, fərəhini bizimlə paylaşdığınız üçün sizlərə təşəkkür edirik!

Məzunlara ürək sözlərini demək üçün ilk söz məktəbin direktoru Mehriban xanım Ələkbərovaya verilir:

- Bu gün məktəbimizin həyatında əlamətdar gündür. Məzunları təbrik edir, onlara gələcək həyatlarında uğurlar arzulayıram. Hər birinin Vətənə xeyirli övlad olacağına inanıram. Həyatının hər məqamında valideynlərinə və Vətənə xeyirli övlad olmalarını diləyirəm.

Çıxışının sonunda cari ilin məzunlarının nəticələrindən danışan direktor, uğurların davamlı olmasını arzuladı.

Yasamal rayonu İcra Hakimiyyətinin nümayəndəsi Rasim Əliyev qeyd etdi ki, hər bir insanın həyatında məktəb illəri böyük rol oynayır. "Bizlər də yazıb-oxumağı, Vətəni sevməyi, bir-birimizə qardaş-bacı olmağı məktəb illərində öyrənmişik. İllər ötəcək, cəmiyyətdə mövqe tutacaqsız. Bundan sonra siz məktəbə şagird kimi yox, qonaq kimi gələcəksiniz. Arzu edirəm ki, bütün məzunların səsi ali təhsil ocaqlarından gəlsin və sizi öz qoynunda sevimli balası kimi əzizləyən məktəbinizi heç vaxt unutmayasınız. Əslində bu gün sizin həyatınızda son zəng deyil, müstəqil həyata atılmağınızın rəmzidir."

Sonra söz 11-ci sinif şagirdi Zərifə Cəfərzadəyə verildi. Olduqca həyəcanlı görünən məzun titrək səslə sözə başlayır:

- Doğma məktəb! Sənin qoynunda keçirdiyimiz bu 11 ildə, bəlkə də, bu gün yeganə gündür ki, biz onu həm sevinclə, həm də kədərlə qeyd edirik. Sevinirik, çünki uşaqlığımızdan bəri birimiz müstəqil olacağımız günü səbirsizliklə gözləyirdik. Artıq məktəbi bitirərək biz buna nail olduq. Bu gündən məktəb illərini geridə qoyaraq, həyatın enişli-yoxuşlu yollarına qədəm basırıq. Bu yolda inamla addımlasaq da, dönüb keçmiş illərə həsrətlə boylanacağıq. Kədərlənirik, çünki 11 il bir yerdə sevincimizi paylaşıb, kədərimizi bölüşdüyümüz mehriban sinif yoldaşlarımızdan, sevimli müəllimlərimizdən, hətta sinif otaqlarımızdan, üzərinə tabaşirlə yazılar yazdığımız lövhələrdən ayrılacağıq.

*Bitirdim məktəbi bu gün mən, demək,*
*Can alıb yuxusuz gecələrimdən.*
*On bir il taxtada yazıb silərək*
*Nə qədər tabaşir işlətmişəm mən?!*

*Ay yazı taxtası, yazı taxtası,*
*Mən səndə nə qədər yazı yazmışam?*
*Hər kiçik rəqəmi, hər kiçik sözü*
*Sinəndə min dəfə azı, yazmışam.*

Tədbirin gedişində məktəb məzunları və birincilərin iştirakı ilə mahnılar və rəqslərdən ibarət konsert proqramı, maraqlı səhnəciklər nümayiş etdirildi.

Sonda dərs ilini müvəffəqiyyətlə başa vuran şagirdlər fəxri fərman və medallarla təltif olundular.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**



# Hərbi hissədə tədbir: "Qurtuluşun zəfər günü"

*Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşları və fəal oxucuları "N" saylı hərbi hissədə Vətənin keşiyində dayanan zabit və əsgərlərin qonağı olublar.*

AZƏRTAC xəbər verir ki, qonaqlar hazırladıqları "Qurtuluşun zəfər günü" adlı musiqili ədəbi-bədii kompozisiyanı hərbi hissənin şəxsi heyəti qarşısında nümayiş etdiriblər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, sonra kitab sərgisi ilə tanış olublar.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə müstəqil Azərbaycan Respublikasının qurtuluş tarixinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorumasından danışılıb, Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində bu gün mötəbər kürsülərdə söz sahibi olan dövlətimizin inkişaf tarixinə nəzər salınıb. Hərbi hissənin xalq çalğı alətləri ansamblının solisti Elnur Abbasov, ansamblın bədii rəhbəri, saz ifaçısı Ramiz Əliyev və Ceyhun Həsənov vətənpərvərlik ruhunda musiqilər ifa ediblər.

Fəal oxucuların əsgər və zabitlər qarşısında söylədikləri Vətənə həsr edilmiş şeirləri alqışlarla qarşılanıb.

Əsgər İsmayıl Hüseynovun vətənpərvərlik mövzusunda səsləndirdiyi şeirlər tədbirə xüsusi ab-hava qatıb.

# "Ermənistan tərəfi kağız üzərində "qəhrəmanlıqla" məşğuldur"

*Ermənistan sosial şəbəkələrində yalan və dezinformasiya xarakterli məlumat paylaşılıb.*

Azərbaycan Respublikası Müdafiə Nazirliyindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, Ermənistan tərəfinin iddia etdiyi vəzifədə Natiq Qurbanov soyadlı hərbi qulluqçumuz ümumiyyətlə xidmət etmir: "Düşmən təbliğat maşınının belə ucuz dezinformasiya xarakterli xəbərlərdən istifadə etməsi suda boğulanın saman çöpündən imdad ummasına bənzəyir. Uğursuz cəhdlər edən düşmən tərəfi özünü kağız üzərində və virtual məkanda "qəhrəman" kimi göstərmək istəyir.

Xəbər verildiyi kimi, 16-17 iyun tarixlərində Ermənistan silahlı qüvvələri 6 hərbi qulluqçusunu itirib. Düşmən çoxsaylı yaralıları isə məcbur qalaraq hər gün bir adla ortalığa çıxarmaqla daxili auditoriyanı sakitləşdirməyə cəhd edir".



## Könlüm şeir istəyir

# Hərbçi şairin ilham mənbəyi

Sübhan Kamaloğlu (Bəkirov) şairlər məkanı Qazaxın Ürkməzli kəndində dünyaya gəlib. Muğama bağlılıq qarabağlıların qanında-canında olduğu kimi, şairanəlik də Qazax bölgəsində doğulanların ruhundadır.

Doğma yurdun cazibədar təbiəti uşaq yaşlarından onun qəlbində silinməz izlər qoyub. Hələ erkən çağlarında yazıya aldığı qələm təcrübələrində doğma yurdun təbiətini vəsf edib. Amma bunlar ötəri həvəs olmayıb, yazmaq, yaratmaq istəyi daim onun qəlbinə hakim kəsilib. Axşam güneşinin al şəfəqlərində "göylərə baş çəkən" Göyəzən dağının əzəmətilə oyanan poetik duyğular onun da düşüncələrində qafiyələnib, şeirlərə çevrilib. Başı buludlara söykənən uca dağlar, sıldırım qayalar məğrurluq aşılayıb, zümrüd meşələr, yamyaşıl çəmənliklər, durna gözlü bulaqlar qoynunda böyüdüyü təbiətə ürəyində sevgi toxumları səpib, yurdsevərlik duyğularına boy verib. Heyranı olduğu gözəlliklər təxəyyülündən süzülərək poetik lövhələrə çevrilib.

Şair qəlbli zabitin şeirləri müxtəlif qəzet və jurnallarda, toplularda çap edilib, dörd kitabı işıq üzü görüb. Sübhan Kamaloğlunun Vətənə məhəbbət, doğma yurdun gözəllikləri, ülvi duyğular və təmənnasız dostluğun tərənnüm edildiyi şeirləri oxucuların dərin rəğbətini qazanıb.

Hərbçi şairin üç şeirini oxucuların diqqətinə təqdim edirik.

**"Azərbaycan Ordusu"**

### Dənizçi əsgər

Əsir sərin-sərin dəniz küləyi
Xəzərin qoynunda, əsgər qardaşım.
Necə xoş görünür matros köynəyi
Cüssəli əynində, əsgər qardaşım.

Vüqarlı, şərəfli bir yol seçmisən,
Alovdan keçmisən, oddan keçmisən,
Vətənə xidmətə sən and içmisən,
Qürur var qanında, əsgər qardaşım.

Hayqırır gəmilər, verir səs-səsə,
Düzülür sıraya, çıxır dənizə.
Vətən fəxr eləyir baxdıqca sizə,
Hünər var canında, əsgər qardaşım.

Dalğalar səngərin, döyüş meydanın,
Zəfərlə qoy keçsin vaxtın, zamanın.
Ucalsın bayrağı Azərbaycanın
Bayraqlar yanında, əsgər qardaşım.

### Var

Bir qonaq gəl Ürkməzliyə,
Onun gözəl havası var.
Göyəzənin zirvəsində,
Qartalların yuvası var.

Damçılının yanı meşə,
Hər bir tərəf dilbər güşə.
Lalə, nərgiz, tər bənövşə,
Vallah, gözəl səfası var.

Sürülər köçdü yalağa,
Qonaq ol bala, qaymağa,
Başlasa yağış yağmağa,
Çobanların çuxası var.

Vətənə vurğundu Sübhan,
Çıxmır heç vaxt xəyalından.
Duyğumuza hakim olan
Sazı, qara zurnası var.

### Xoşbulaq

Gəzdim Vətənimi mən qarış-qarış,
Bütün yaylaqların gözü Xoşbulaq.
Xəyallar keçmişə apardı məni,
Bənzərsiz yurdumun özü Xoşbulaq.

Qoşqar dayağıdır Yeddi qardaşın,
Qızıldı, gümüşdü torpağın, daşın.
Narzandan keçəndə qarın, yağışın,
İslatdı, üşütdü bizi Xoşbulaq.

Vallah, qüdrətdəndir ölkəmin payı,
Yoxdu gözəllikdə heç yerdə tayı?!
Cənnət kimi çəkir baharı, yayı,
Bütün obaların gözü Xoşbulaq.

Seyr etdim, doymadım yaylaqlarından,
At belində keçdim oylaqlarından,
Sübhan doyarmı heç bulaqlarından,
Sən oldun söhbəti-sözü, Xoşbulaq.

## Qırğızıstan portalı erməni cəllad Levon Mirzoyanın türkdilli xalqlara qarşı qəddarlığından yazır

Qırğızıstanın "Goldenbridgenews" portalı rus dilində "Levon Mirzoyan: İki xalqın cəlladı Azərbaycanda və Qazaxıstanda hakimiyyətin yüksək pilləsinə necə çatdı" sərlövhəli geniş məqalə yayıb.

Məqalədə bildirilir ki, XX yüzilliyin əvvəllərində erməni daşnaklarının qanlı qırğınları nəticəsində ancaq Azərbaycan xalqının deyil, digər türkdilli xalqların nümayəndələri də məhv edilib, sürgün edilib. Mirzoyan 1918-ci ildə Azərbaycanda qanlı mart qırğınlarında fəal iştirak edib. 1926-1929-cu illərdə Azərbaycan KP MK-nin birinci katibi vəzifəsində işləyən Mirzoyan türkdilli xalqlara qarşı amansız terrorçuluq əməlləri törədib. Bir müddət Perm şəhərində işlədikdən sonra Qazaxıstan KP MK-nın birinci katibi vəzifəsinə gətirilib. O, Qazaxıstanda öz məkrli planlarından əl çəkməyib, qazaxların kütləvi qırılmasına əmr verib.

**AZƏRTAC-ın materialları əsasında**

## Hərbi ənənələr, yeniliklər

# "Krasuxa-4" radioelektron mübarizə kompleksi



Rusiyanın yüksək texnologiyalar əsasında hazırlanmış müasir "Krasuxa-4" radioelektron mübarizə kompleksi düşmənin bütün hava hədəflərinə qarşı ən təhlükəli silahdır. Kompleksin əsas vəzifəsi strateji vacib istiqamətlərdə fəaliyyət göstərməsidir. Unikal cihazlarla təchiz olunmuş "Krasuxa-4" radioelektron mübarizə kompleksi müxtəlif hava hədəflərinə qarşı eyni effektlə işləyir və onun döyüş keyfiyyətlərinə nə sürət, nə hündürlük, nə də ki, hündürlükdə olan hava hədəfi təsir göstərə bilməz.

Bryansk elektro-mexanika zavodunun baş direktorunun məlumatına görə, bu vasitə hava hədəflərini aşkar etməyə və onlara qarşı manea törətməyə qadirdir. Kompleksə quraşdırılmış müasir detallar onun antenasının müxtəlif istiqamətlərə dönməsinə imkan verir. Boşqab karkasla bərkidilir və dördoxlu, hər yerdə hərəkət edən KAMAZda quraşdırılır. Bu mobil kompleks qütb dairəsi arxasında və Ərəbistan səhralarında da işləyə bilər. İsti və soyuq havaya davamlıdır. Onun kabinəsi şüalanmaya qarşı mühafizə vasitələri ilə təchiz edilib. "Krasuxa-4" kompleksində sərbəst hava qızdırıcısı və kondisioner quraşdırılıb. Təkər formulası 8x8, heyəti 7 nəfərdən ibarətdir. Mühərrikinin gücü 500 at gücündədir. Kabinə üzrə şassinin hündürlüyü - 2845 mm, minimal dönmə radiusu - 14,5 metr, təchiz olunmuş halda çəkisi 18 tondur və 20 tona qədər yük qaldırmağa qadirdir. Şose yolda maksimal sürəti saatda 80 kilometrə qədərdir. Yanacaq sərfinə görə ehtiyat sürəti 1000 kilometr təşkil edir. Müxtəlif maneələrə qarşı davamlıdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan idmançısı K-1 üzrə dünya Qran-Prisinin çempionu olub



Yaponiyanın Saytama şəhərində keçirilən "K-1 World Grand Prix-2017" turnirində çıxış edən Azərbaycan kikboksçusu Çingiz Allazov ardıcıl üç qələbə qazanaraq çempion olub.

Kikboksçumuz dörddəbir finalda yaponiyalı K-1 ustası Xiroki Nakadjimaya ikinci raundda nokautla qalib gəlib. Yarımfinal döyüşündə isə idmançımız "Mike's Gym" klubunu təmsil edən Yordan Pikeri üçüncü dəqiqədə nokautla məğlub edib.

Ç.Allazov final döyüşündə turnirin favoritlərindən hesab edilən Yaponiya təmsilçisi Sanni Daxlbeki üzərində qələbə qazanıb və yarışın ən yaxşı döyüşçüsünə verilən kəmərə sahib olub.

## Veteran cüdoçularımız Avropa çempionatının qalibi olublar



Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən veteran cüdoçular arasında Avropa çempionatının komanda yarışları millimiz üçün uğurlu olub.

30-40 yaş kateqoriyası üzrə komanda yarışında mübarizə aparan millimiz bütün rəqiblərinə qalib gələrək Avropa çempionu adını qazanıb.

Qeyd edək ki, fərdi yarışlarda veteran cüdoçularımız 4 qızıl, 4 gümüş və 2 bürünc medal qazanıblar.

## Bakının "Neftçi" klubu Almaniyanın "Şalke" komandası ilə qarşılaşacaq



Bakının "Neftçi" futbol klubunun hazırlıq planı müəyyənləşib.

İyunun 26-da Bakıda təlim-məşq toplanışına başlayacaq komanda iyulun 24-də ölkə xaricinə çıxacaq. Hazırlıq prosesi avqustun 3-dək Avstriyanın Kirxdorf bölgəsində təşkil olunacaq.

Toplanış çərçivəsində ilk yoxlama oyunu iyulun 26-da Bakı vaxtı ilə saat 20:00-da Almaniyanın "Şalke" klubuna qarşı olacaq. Digər yoxlama görüşləri iyulun 30-da və avqustun 2-3-də baş tutacaq.

## Azərbaycan millisi Ermənistan həndbolçularını məğlub edib



Bolqarıstanda inkişaf etməkdə olan ölkələr arasında kişi həndbolçuların ikinci çempionatı keçirilir.

Azərbaycan millisi 9-16-cı yerlər uğrunda görüşdə Ermənistan yığması ilə qarşılaşıb. Oyunun ilk hissəsi millimizin böyük hesablı üstünlüyü ilə yekunlaşıb - 21:7. Matçın ikinci hissəsində də üstünlüyü davam etdirən komandamızın əvəzedici heyəti 18:14 hesabı ilə qalib gəlib. Ümumi hesabda rəqibini 39:21 hesabı ilə məğlub edən həndbolçularımız turnirdə ikinci dəfə meydandan qalib ayrılıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Orucov Əziz Sadəli oğluna 2012-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir İsmayılov Xəyal İdris oğluna 2014-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əsgər Yarməmmədov Qüdrət Yaşar oğluna 2016-cı ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Ehtiyatda olan gizir Şahiyev Nizami Xanbala oğluna 1994-cü ildə verilmiş muharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Əbülfət QASIMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 292 Nüsxə 4650 |